**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2012-ci il 31 oktyabr tarixli 89 nömrəli qərarı ilə təsdiq edilmiş "Gömrük brokerlərinin dövlət qeydiyyatının aparılması Qaydaları"nda dəyişikliklər edilməsi haqqında

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 12 oktyabr tarixli 230 nömrəli qərarı ilə təsdiq edilmiş "Gömrük brokerlərinin dövlət reyestrinin aparılması Qaydaları"nda dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 28 oktyabr tarixli 425 nömrəli qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2012-ci il 31 oktyabr tarixli 89 nömrəli qərarı ilə təsdiq edilmiş "Gömrük brokerlərinin dövlət qeydiyyatının aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.3-cü bənddə "fəaliyyəti üçün lisenziya almış" sözləri "fəaliyyətini həyata keçirən" sözləri ilə əvəz edilsin.

2. 3-cü hissənin mətni aşağıdakı redaksiyada verilsin:

"Gömrük brokeri yenidən təşkil edildikdə, adı və ya hüquqi ünvanı dəyişdikdə, dövlət reyestrində müvafiq dəyişikliklər edilir.".

3. 4.1-ci və 4.2-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"4.1. Gömrük brokerinin fəaliyyəti dayandırıldıqda və ya fəaliyyətinə xitam verildikdə, gömrük brokeri dövlət reyestrindən çıxarılır.

4.2. Fəaliyyəti dayandırılmış gömrük brokerinin fəaliyyəti yenidən bərpa edildikdə, gömrük brokeri yenidən dövlət reyestrinə daxil edilir.".

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri:** **Ə.Baxşıyev**

«18» noyabr 2016-cı il

№ 112